AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

# MƏZUNLARLA İŞ HAQQINDA QAYDALAR

## ATMU-KKŞ-Q(Mİ)-01

Bakı-2022

| Dəyişikliklər haqqında məlumat | | | |
|---|---|---|---|
| **Tarix** | **Versiya** | **Tərtib etdi** | **Dəyişikliyin izahı** |
| 14/11/22 | 01 | Lalə Qafarova | İlkin versiya |
| 01/12/22 | 02 | Səidə Məmmədova | Düzəlişlər, əlavə və ixtisarlar |
| 23/12/22 | 03 | Lalə Qafarova | Düzəlişlər, yekun versiya |

## Mündəricat

1. Məzunlarla iş üzrə ümumi müddəalar .................................................. 4
2. Məzunlarla işin məqsədi.................................................. 4
3. Məzunlarla iş üzrə vəzifələr .................................................. 5
4. Məzun şəbəkəsi .................................................. 5
5. Məzunlarla qarşılıqlı əlaqənin əsas istiqamətləri.................................................. 6
6. Məzunlar üçün karyera məsləhəti və planlaması ..................................................6
7. Məzunlarla görüş .................................................. 8
8. Ölkədaxili və ölkə xarici iş imkanları .................................................. 9

**Təsdiq edirəm**

**Azərbaycan Turizm və Menecment**

**Universitetinin rektoru**

_______________ İ.İ.Mədətov

"___" __________ 2022-ci il

## 1. MƏZUNLARLA İŞ ÜZRƏ ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Turizm və Menecment Universitetinin həyata keçirdiyi təhsil siyasətinin əsas istiqamətlərindən biri məzunlarla işin həyata keçirilməsidir. Bu istiqamət təhsildə yüksək keyfiyyətin təmin olunması, mövcud boşluqların müəyyən edilməsi, güclü tərəflərin daha da inkişaf etdirilməsi üçün təhlillərin və statistik araşdırmaların aparılması, o cümlədən tələbələrin universiteti bitirdikdən sonrakı peşəkar fəaliyyətinə dəstək üçün mühüm əhəmiyyət kəsb edir.

Məzunlarla işin təşkil edilməsində məzun şəbəkəsinin yaradılması xüsusi önəm kəsb edir. Məzun şəbəkəsi məzunlarla universitet arasında bağların daimi olması üçün bir vasitədir.

1.2. Bu qaydalar Karyera və Kommunikasiya şöbəsinin Əsasnaməsinə, şöbənin illik iş planına və ATMU-nun normativ hüquqi sənədlərinə uyğun hazırlanmışdır.

1.3. ATMU-nun Karyera və Kommunikasiya şöbəsi "məzunlarla iş" üzrə məsul struktur vahiddir.

## 2. MƏZUNLARLA İŞİN MƏQSƏDİ.

Məzunlarla işin məqsədi universitetlə məzunlar arasında qarşılıqlı faydalı əlaqələrin yaradılması və davamlılığının təmin edilməsi, fiziki və ya hüquqi şəxslər olan universitet məzunları ilə tərəfdaşlığın inkişaf etdirilməsi və universitet məzunlarının karyera inkişafina dəstək verməkdir.

## 3. MƏZUNLARLA İŞ ÜZRƏ VƏZİFƏLƏR.

3.1. "Məzunlarla iş" in əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Məzunların universitet həyatına cəlb olunmasını təmin etmək;

3.1.2. Birgə təlim və tədbirlərin, görüşlərin təşkili;

3.1.3. Karyera məsləhəti və planlamasına dəstək;

3.1.4. Uzunmüddətli qarşılıqlı münasibətlərin qurulması;

3.1.5. Universitetin brendinqinin möhkəmləndirilməsi və təbliğat-təşviqat proqramının hazırlanması işinə məzunların cəlb olunması;

3.1.6. Məzunların önə sürdüyü hər hansı layihə, dərslik və dərs vəsaiti, tərcümə vəsaitləri və s. universitet daxilində tanınması və təbliğ işlərinə dəstək.

## 4. MƏZUN ŞƏBƏKƏSİ

4.1. Məzun şəbəkəsinin məqsədi universitetin nüfuzunu yüksəltməyə kömək edəcək keçmiş məzunlardan ibarət şəxsləri bir araya toplayaraq birlikdə tədbirlərin və layihələrin təşkilinin həyata keçiririlməsi, universitetlə məzunlar arasında əlaqələrin gücləndirilməsi və davamlılığını dəstəkləməkdən ibarətdir.

4.2. ATMU məzun şəbəkəsi yaradılarkən məzunlar haqqında hazırlanmış məlumat bazasındakı məlumatlardan istifadə edilir. Sözügedən bazada məzunun ad, soyad, ata adı, məzun olduğu ixtisas və il, əlaqə vasitələri, məşğulluq vəziyyəti haqqında məlumatlar öz əksini tapır.

4.3. Məzun bazasının hazırlanmasında əsas məqsədlər aşağıdakılardır:

4.3.1. Məzunların ATMU ilə əlaqələrinin möhkəmləndirilməsi;

4.3.2. Məzunlarla iş prosesinin reallaşdırılması (onların universitetə dəvət olunması, tələbələrlə görüşlərin keçirilməsi, müxtəlif yönümlü və müxtəlif miqyaslı tədbirlər keçirmək, məzunların ATMU-da əmək fəaliyyətinə cəlb olunması, yeni kurrikulumun tərtibində müzakirələrdə iştirak və s);

4.3.3. Məzunların məşğulluq vəziyyətinin müəyyən edilməsi;

4.3.4. İşsiz olan məzunların ixtisas yönümlü karyera imkanlarının dəstəklənməsi;

4.3.5. Onların ATMU-nun fəaliyyətinə dəstək verməsi;

4.3.6. Məzunların karyera uğurları haqqında məlumatların toplanılması və təbliğ edilməsi.

4.4. Məzun şəbəkəsinin qurulması prosesi aşağıdakı vasitələrlə həyata keçirilir:

4.4.1. Universitet və məzunlar arasında ortaq maraqların öyrənilməsi və məzun qruplarının yaradılması;

4.4.2. Müasir cəlbetmə strategiyaları və cəlbetmə mədəniyyətinin yaradılması;

4.4.3. Operativ əlaqə üçün sosial şəbəkələrdən (Linkedin, Instagram, Facebook) istifadə edilməsi;

4.4.4. Məzun şəbəkəsinin mütəmadi yenilənməsi və nəticələrə əsasən statistik göstəricilərin çıxarılması;

4.4.5. Məzunlarla şifahi (canlı və onlayn görüşlər) ünsiyyət;

4.4.6. Maraqlı məzmun və kreativ layihələrin yaradılması və məzunlarla müzakirəsi;

4.4.7. Məzunların şəxsi təşəbbüsləri;

4.4.8. Dövrün və hadisələrin tələblərinə uyğun yeni, çevik fəaliyyət istiqamətləri

## 5. MƏZUNLARLA QARŞILIQLI ƏLAQƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ:

"Məzunlarla iş" üzrə əsas fəaliyyət istiqamətləri məzunlarla mütəmadi görüşlər və yazışmalar, birlikdə tədbir, təlim və layihələrin icrası, tədbirlərə qonaq qismində dəvət, tələbələrin məzunların təsis etdiyi müəssisələrdə istehsalat təcrübəsi və ya iş imkanı olaraq yerləşdirilməsi, tələbələrə məzunlar tərəfindən karyera məsləhətlərinin verilməsi, universitet həyatında məzunların daha sıx iştirakının təmini, məzunların universitet xaricində təşkil etdiyi təlim, layihə, tədbirlərə tələbələrin könüllü cəlb edilməsidir.

## 6. MƏZUNLAR ÜÇÜN KARYERA MƏSLƏHƏTİ VƏ PLANLAMASI

6.1. **Karyera məsləhəti** – ATMU-nun Karyera və Kommunikasiya şöbəsinin tələbə və məzunlar üçün nəzərdə tutulan xidmətidir. Bu xidmətdən bütün tələbə və məzunlar yararlana bilər. Karyera məsləhəti çərçivəsində tələbələrlə təkbətək görüşlərin keçirilməsi nəzərdə tutulur. Görüş tarixi və vaxtı əvvəlcədən müəyyənləşdirilməlidir. Müraciətdən sonra bir həftə ərzində görüş vaxtı təyin edilə bilər. Karyera məsləhəti zamanı tələbə və məzunlara şəxsi inkişaf

planının hazırlanması və portfolionun qurulmasına birbaşa dəstək verilir. CV-nin hazırlanması, iş və ya təcrübə proqramlarına müraciətin göndərilməsi, elektron şəbəkələrdə peşəkar profilin qurulması, tövsiyə və motivasiya məktubunun yazılması və s. karyera məsləhəti zamanı müzakirə olunan məsələlər sırasındadır;

6.2. İş tapmaqda dəstək və ya karyera məsləhəti almaq istəyən məzunlar universitetin rəsmi saytında yerləşdirilmiş karyera məsləhəti ilə bağlı linkə daxil olaraq qeydiyyatdan keçir və gün təyin olunaraq və ya iş saatları çərçivəsində şöbəyə yaxınlaşaraq, şöbənin məsul əməkdaşları tərəfindən karyera məsləhəti və iş tapmaqda dəstək göstərilir.

**6.3. Karyera planlaşdırma prosesi bir neçə addımdan ibarətdir:**

6.3.1. İlkin olaraq məzunun şəxsi keyfiyyətlərinin, güclü və zəif tərəflərinin, üstünlüklərinin, bilik və bacarıqlarının, maraqlarının, karyera dəyərlərinin qiymətləndirilməsi və ümumi səviyyənin təyin edilməsi;

6.3.2. 2-ci mərhələ olaraq potensial iş yerlərinin və mümkün iş variantlarının araşdırılması. Müxtəlif vəzifələr, irəliləyiş imkanları üçün əmək bazarının araşdırılması. Onlayn araşdırmaya əlavə olaraq, iş haqqında məlumat və məsləhət almaq üçün məzunun maraqlandığı sahəyə aid müəssisə və şəxslərlə müzakirə aparılması, sahənin reallıqları və o sahəyə tövsiyə olunan hazırlıq və tələblərin təyin edilməsi;

6.3.3. Məzunun maraq və səviyyəsinə uygun bir və ya bir neçə sahənin təklifi və üstünlükləri haqqında ətraflı məlumat paylaşılması. CV-də əskiklərin tamamlanması ilə bağlı sahənin tələblərinə uyğun kursların, təlimlərin və s. məsləhət görülməsi.

6.3.4. Rəqabətə davamlı, rəsmi CV hazırlanmasında dəstək, həmçinin uğurlu tövsiyə məktubunun yazılması;

6.3.5. Müəssisə ilə əlaqə quraraq məzun haqqında geri dönüş alınması. (feedback)

## 7. MƏZUNLARLA GÖRÜŞ

7.1. Məzunlarla görüşün əsas məqsədi universitetlə məzunlar arasında sıx əlaqələr yaratmaq, keçmiş tələbələrin peşəkar karyera töhfələrini tələbələrə çatdırmaq, birgə təlim, tədbir və layihələr təşkil etmək və son olaraq əməkdaş və ya rəhbər olduqları şirkət və müəssisələrdə ATMU tələbələrinin könüllü təcrübə proqramları, iş imkanlarına cəlb etməkdir. Bu görüşlər həmçinin, ən uğurlu məzunları müəyyən etməyə kömək edir. Adətən, məzunlar xarici aləmdəki təcrübələrini və peşəkar iş həyatlarını necə idarə etdikləri barədə məlumatları tələbələrlə bölüşərək, tələbəlik həyatının maraqlı keçməsi və gələcəkdə uğurlu insan olmaq üçün müəyyən məsləhətlər verirlər. Həmçinin, məzunlara universitetə artıq qonaq qismində gələrək, müəllimlər və inzibati heyətlə görüşmək imkanı yaradılır. Qeyd etmək lazımdır ki, xaricdə yaşayan və işləyən məzunları nəzərə alaraq görüşlər həm canlı, həm də onlayn şəkildə təşkil olunur.

### 7.2. Birgə təlim , tədbir və layihələrin təşkili

7.2.1. Universitet daxilində hər tədris ili üzrə məzunlarla birgə müxtəlif təlim və tədbirlər təşkil olunur. ATMU-nun Karyera və Kommunikasiya şöbəsi tələbə və məzunların peşəkar inkişafını yüksəltmək, eləcə də onlarda analitik düşüncə, biznes idarəçilik vərdişləri, kreativlik və sair peşəkar bacarıqları aşılamaq məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlər, seminar və təlimlər təşkil edir. Bundan başqa,  qısa müddətli tanışlıq tədbirləri, müəssisələrin təqdimatı, universitetə sənayedən qonaq məruzəçilərin dəvəti və digər əlaqəli fəaliyyətlər də Karyera və Kommunikasiya şöbəsinin hədəflərindəndir. İl ərzində məzunlarla birlikdə kiçik layihə və ya silsilə təlimlər formatında tələbələrlə məzunların görüşü baş tutur.

## 8. ÖLKƏDAXİLİ VƏ ÖLKƏ XARİCİ İŞ İMKANLARI

8.1. Karyera və Kommunikasiya şöbəsinin təşkilatçılığı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə il ərzində 1-2 dəfə olmaqla universitetin məzun və tələbələri üçün ölkənin nüfuzlu, tanınmış müəssisələrinin iştirakı ilə əmək yarmarkası təşkil olunur.

8.2. Mütəmadi olaraq, müəssisələr tərəfindən göndərilən vakansiyalar müvafiq olaraq məzunlara göndərilir. Həmçinin əmək bazarı mütəmadi araşdırılaraq hal-hazırkı dövrün tələb olunan iş imkanları, təcrübə proqramları, könüllü fəaliyyət sahələri tələbə və məzunlara təqdim olunur. Məzunların potensialına uyğun olaraq iş imkanları təklif olunur, CV hazırlanması, tövsiyə məktubu yazılmaqda dəstək göstərilir.

8.3. Yalnız ölkə daxili deyil, həmçinin beynəlxalq arenada perspektivli iş imkanları tələbə və məzunlara təklif edilir.